**UOT 16**

**Şəfəq HACIYEVA**
*e.i., AMEA Fəlsəfə İnstitutu*

# ANLAYIŞLARIN MAHİYYƏTİ, STRUKTURU VƏ FUNKSİYALARI*

Obyektiv gerçəkliyin dərk olunmasında istifadə edilən təfəkkür formalarından biri də anlayışlardır. Bu mövzunun öyrənilməsinə tələbat bizi əhatə edən ucsuz-bucaqsız kainatın sirlərini, dünyanın mənzərəsini, həyatımıza daxil olan gündəlik əşyaların sirlərini daha dərindən öyrənmək, dərk etmək zərurətindən irəli gəlir. Anlayışların köməyilə gerçəklikdəki predmet və hadisələrin dərk edilməsi insana anadangəlmə keyfiyyət kimi verilmir. Bu keyfiyyət yalnız təfəkkür praktikasında formalaşır və inkişaf edir. Məntiq elmi təfəkkürün strukturunu, forma və qanunlarını tədqiq etdiyindən, bu quruluşun sadə ünsürü yəni fikir fəaliyyətinin "hüceyrəsi" hesab edilən anlayışların təhlilindən başlamaq zəruridir [1, s.131].

Anlayış fikirdir, ideal hadisədir, ona görə də ideal hadisələrin köməyi olmadan aləmi dərk etmək mümkün deyildir. Hər bir mücərrəd təfəkkür anlayış formasında həyata keçirilir. Anlayış insan təfəkkürünə xas olduğundan, biz predmet və hadisələrin daxili təbiətini, mahiyyətini anlayışların vasitəsilə dərk edir, gerçəklik haqqında yeni-yeni biliklərə yiyələnirik. Anlayış cisim və hadisələrin xarici əlamətlərini, onların ayrı-ayrı cəhətlərini deyil, cisim və hadisələrdəki mühüm, ümumi cəhətləri, onların bütövlüyünü, daxili əlaqəsini əks etdirir. Dediklərimizdən belə qənaətə gəlmək olar ki, anlayış cisim və hadisələrin ən ümumi, mühüm, zəruri xassə və əlamətlərini, cisim və hadisələr arasındakı əlaqə və münasibətləri beynimizdə əks etdirən fikirdir, təfəkkür formasıdır.

Anlayışlar birdən-birə yaranmır, onlar insanların maddi istehsalda fəaliyyəti nəticəsində formalaşır, hadisə və prosesləri düzgün əks etdirmək səviyyəsinə qədər yüksəlir. Hər bir anlayışın inkişaf prosesi iki istiqamətdə gedir:

1) elmin, texnikanın və mədəniyyətin inkişafında nail olduğumuz anlayışlar cilalanır, dürüstləşdirilir və abstraksiya səviyyəsinə qaldırılır;

2) köhnə anlayışlar dəyişdirilir ki, bunun da əsasında obyektiv gerçəkliyin mənzərəsini dəqiq əks etdirən yeni anlayışlar meydana gəlir [3, s.79].

Elmi anlayışların yaranması da idrakın müxtəlif üsul və metodlarını tətbiq etməklə yaranan mürəkkəb prosesdir. Elmi anlayışlar nə qədər doğru və mükəmməl olarsa, gerçəkliyi daha dərindən əks etdirər. Biz cisim yaxud cisimlər sinfi haqqında məfhum yaradarkən bu sinfə daxil olan bütün cisimlər üçün ümumi və zəruri olan əlamətləri ayırırıq, idrakın sonrakı gedişində isə təsadüfi, qeyri-mühüm əlamətlər atılır, cisim və hadısələrdəki əsas, mühüm əlamətlər sintezləşdirilir ki, bunlar da məfhumların məzmununu təşkil edir. Buna görə də anlayış boş, məzmunsuz abstraksiya deyil, cisim və hadisələrdəki ümumi, mühüm əlamətlərin inikasıdır.

Hər bir elmin məzmununu onun istinad etdiyi məfhumlar, anlayışlar sistemi təşkil edir. Məsələn, fəlsəfədə "məkan", "zaman", "materiya", "şüur" və i.a. anlayışlar vardır. Bu baxımdan yanaşdıqda elmi anlayışların inkişaf tarixi göstərir ki, hər bir məfhumun yaranması elmin və ictimai praktikanın nailiyyətləri əsasında həyata keçirilən elmi tədqiqatın mürəkkəb prosesidir, insan fikrinin həmin dövrdə müəyyən məsələdə əldə etdiyi nailiyyətlərin məcmusudur.

Anlayışların səciyyəvi cəhətlərini aşkara çıxarmaq məqsədilə ilk növbədə onun gerçəkliyin inikas forması olduğu və dillə, nitqlə də üzvi vəhdəti ön plana çəkilməlidir (2,s.98).Yəni məntiq

* Məqalə fəlsəfə ü.e.d., professor Əlikram Tağıyev tərəfindən çapa məsləhət görülüb.

elmini bilmək bu mürəkkəb prosesi kortəbiilikdən şüurluluğa çevirməyə kömək edir, onu daha qısa və əlverişli formaya salır.

Bizi əhatə edən aləmin müxtəlifliyi, mürəkkəbliyi ayrı-ayrı xassələrə malik və öz aralarında müəyyən əlaqələrdə olan maddi cisimlərin çoxluğunun mövcudluğu anlayışların məcmusunu şərtləndirir. Bu cisimlərin, hadisələrin təbiətinin dərki, onların mahiyyətinin aşkara çıxarılması bu predmetləri əvəz edən və insan biliklərinin və elmlərinin inkişaf vasitələrinin olmasını tələb edir. Bu vasitələrdən biri anlayışlardır.

Anlayışlar məntiqın əsas tədqiqat predmeti olmaqla yanaşı hökmlərin, əqli nəticələrin, hipotizlərin, sübutların, elmi nəzəriyyələrin, yekun biliklərin qurulması üçün tədqiqat predmeti və vasitəsidir.

Anlayışların meydana gəlməsi, yaranması – insan təfəkkürünün təşəkkül tapmasının və inkişafının obyektiv qanunauyğunluğudur, yəni başqa sözlə ifadə etsək, bu prosesin ilkin şərtləri, şəraiti və səbəbləridir.

Təfəkkürümüzdə anlayışların meydana gəlməsi və mövcudluğunun əsasını bizi əhatə edən gerçəkliyin predmetli xarakter kəsb etməsidir. Başqa cür desək, gerçəklikdə keyfiyyət müəyyənliyinə malik olan ayrı-ayrı predmet və hadisələrin olmasıdır [1,s.131]. Məsələn, Yer, Günəş, kosmik səma, planetlər, çaylar, dağlar və s.Yəni belə predmetlərin mövcudluğu bizdə onlara uyğun anlayışların yaranmasına səbəb olur. Bizi əhatə edən gerçəklikdəki predmet və hadisələr rəngarəngdir, bir-birinə oxşar və fərqli cəhətləri vardır. Cisimlərin hər cür xassəsi, əlaməti, vəziyyəti onu bir predmet kimi xarakterizə edir, digərlərindən ayırır və dərk olunmasına kömək edir. Bütün predmet və hadisələr az və ya cox dərəcədə bir-birindən fərqlənir, müəyyən mürəkkəb xarakter daşıyır, öz aralarında əlaqəli olan elementlərdən ibarətdir və bunlar bu və digər xassələrə malikdir. Bu xassələr digər predmetlərlə müəyyən əlaqə və münasibətdədirlər. Cismin əlaməti onun digər cisimlərlə oxşar və fərqli cəhətləridir, başqa sözlə desək, predmeti konkret predmet kimi səciyyələndirən, onu başqalarından fərqləndirən cəhətlərdir. Əlamət dedikdə, predmetin göstəricisi, nişanəsi, cismin tanınma vasitəsi və s. bu kimi xassələri nəzərdə tutulur. Biz çox vaxt həyatın, dövlətin, böhranın, ümumiyyətlə gündəlik həyatımızda yaşadığımız, gördüyümüz, şahidi olduğumuz bütün hadisələrin əlamətləri haqqında mühakimələr yürüdür və müxtəlif qənaətlərə gəlirik. Lakin bu əlamətlərin birinin digərindən fərqləndirilməsi obyektiv xarakter daşıyır.

Predmetin, hadisənin əlamətləri çoxdur və müxtəlif xarakter daşıyır. Əlamətlər ümumi, fərqləndirici, mühüm, qeyri-mühüm, zəruri, təsadüfi, təkcə və s. yerlərə bölünə bilər. Bu bölgünün özü də nisbi xarakter daşıyır, çünki vaxtdan və şəraitdən asılı olaraq biri digərinə çevrilir, eləcə də bir qrup predmetlər üçün ümumi olan əlamət onları digər predmetlərdən fərqləndirdiyinə görə fərqləndirici kimi çıxış edə bilər. Bu o deməkdir ki, bir münasibətdə mühüm olan əlamət digər münasibətdə qeyri-mühüm, bəzi əlaqələrdə zəruri olan, digərində təsadüfi ola bilər [3, s.93].

Əlamətlər anlayışların əsasını təşkil edir və hər bir predmet özü- özlüyündə müxtəlif əlamətlər çoxluğuna malikdir. Cismin, hadisənin daxili təbiətini, onun mahiyyətini əks etdirən əlamətlər mühüm əlamətlər adlanır. Məsələn, “cinayət” anlayışının mühüm əlamətləri insanın qanunsuz olaraq azadlıqdan məhrum edilməsi, şərəf və ləyaqətinin tapdalanması, böhtan və s.-dir. Cismin, hadisənin mahiyyətini ifadə etməyən əlamətlər isə qeyri-mühüm adlanır. Şəxsin ixtisası, cinayətin nəticələri, iştirakçıların kəmiyyəti, əvvəlcədən danışıqların olması və s. mühüm olmayan əlamətlərdir.

Anlayışların yaranmasına zərurət hər şeydən əvvəl onun əməklə, insanların maddi istehsal fəaliyyətilə üzvi əlaqəsindən irəli gəlir. Bu fəaliyyət prosesində insan gerçəkliyin ayrı-ayrı predmetinin sonsuz müxtəlifliyi ilə, təbiətə səmərəli təsir etmək məqsədilə bu predmetlərin

dərindən dərk edilməsi arasındakı labüd ziddiyyətlə qarşılaşır. Bu ziddiyyətlərin həllinin vasitəsi kimi anlayışlardan istifadə olunur.

Əlamətlər cinsi və növü əlamətlərə də bölünə bilər. Məsələn, canlılıq, tənəffüs etmək və s. insan üçün cinsi əlamətdirsə, mühakimə yürütmək qabiliyyəti, nitqin olması insanın növü fərqləndirici əlamətidir. Anlayışın səciyyəsi əlamətlərdən başlamalıdır. Cismin əlaməti onun digər cisimlərlə oxşar və fərqli cəhətləridir. Əlamətlər özü də ümumi, fərqləndirici, mühüm, qeyri-mühüm, zəruri, təsadüfi və s. yerlərə bölünür[2,s.101]. Bundan başqa, anlayışların yaranması prosesi də bəzi əməliyyatların əsasında gedir: müqayisə, analiz, sintez, mücərrədləşdirmə, ümumiləşdirmə.

**Analiz**- cismin, hadisənin onun öz əlamətlərinə, tərkib hissələrinə görə fikrən ayrılmasıdır.

**Sintez** – predmetin əlamətlərinin bir bütövdə fikrən birləşdirilməsi və onların arasındakı qarşılıqlı əlaqəni öyrənməkdir.

**Müqayisə** - bir cisim və hadisəni başqaları ilə tutuşdurmaq, bu və ya digər münasibətdə aralarındakı oxşar və fərqli əlamətləri aşkarlamaqdır.

**Mücərrədləşmə** - ( latınca abstractio – təcridetmə) predmet və hadisələrin bir sıra əlamətlərinin digərlərindən ayrılması, təcrid olunması yolu ilə fikrən sadələşdirilməsidir. Bu prosesin nəticəsi anlayışların sinonimi kimi abstraksiya adlanır.

**Ümumiləşdirmə** - bu və ya digər ümumi əlamətlər əsasında həmcins predmetlərin, onların qruplarının fikrən birləşdirilməsidir (1, s.133).

Bütün bu məntiqi üsullar öz aralarında sıx əlaqədə olmaqla vahid prosesi yaradır. Son nəticədə, müxtəlif məzmun alan fikir prosesi dəyişməz eyni formanı – anlayışı yaradır. Anlayışların yaranması prosesində müxtəlif predmet və hadisələr, onların xassələri “ dərkedici ələk” vasitəsilə ələnir, bu və digər münasibətdə vacib və faydalı əlamətlər ayrılır, mühüm olmayan, təsadüfi xassə və tərəflər istisna olunur.

Elmi anlayışların yaranması idrakın müxtəlif üsul və metodlarını tətbiq etməklə yaranan mürəkkəb və uzun sürən bir prosesdir. İdrakın gedişində predmet və hadisəyə aid olan təsadüfi , qeyri-mühüm əlamətlər atılır, konkret məntiqi sinfə xas olan predmetlərdəki ümumi, vacib, zəruri əlamətlər sintezləşdirilir ki, bunlar da anlayışların məzmununu təşkil edir. Anlayış boş, məzmunsuz abstraksiya deyil, predmet və hadisələrdəki ümumi, mühüm, zəruri əlamətlərin inikası, təzahürüdür.

**Açar sözlər:** *məntiq, məntiq elmi, fəlsəfə, anlayış, struktur, cisim, hadisə*

### İstifadə olunmuş ədəbiyyat:

1. M. İsrafilov: Məntiq kursu (dərslik). Bakı, “ Turan , 2001.
2. M. İsrafilov: Məntiq (nəzəriyyə və praktika). Bakı: “Turan evi”,2005.
3.Z. Hacıyev: Məntiq. Bakı: Təhsil, 2007.

**Шафаг ГАДЖИЕВА**

## СУТЬ, СТРУКТУРА И ФУНКЦИИ ПОНЯТИЙ

### Резюме

В представленной статье рассматриваются суть, структура и функции понятий. Понятие — это отражённое в мышлении единство существенных свойств, связей и отношений предметов или явлений, а также мысль или система мыслей, выделяющая

и обобщающая предметы определенною класса по общим и в своей совокупности специфическим для них признакам . Оставить абстрактности речи.

Понятия возникают как абстракции или обобщения из опыта; от результата трансформации существующих идей или от врожденных свойств.

**Ключевые слова:** *логика, философия, понимание, структура, объект, событие*

**Shafag HAJIYEVA**

## THE ESSENCE, STRUCTURE AND FUNCTION OF CONCEPTS

### Summary

The presented article considers the essence, structure and function of concepts. The concept is a unity of essential properties, connections and relations of objects or phenomena reflected in thinking; a thought or a system of thoughts that distinguishes and generalizes objects of a certain class by common and in their totality specific characteristics. The concept in its abstractness is opposed to the concreteness of perception. Also the concept opposes a word, which can be interpreted as a sign of the concept. Concepts arise as abstractions or generalizations from experience; from the result of a transformation of existing ideas or from innate properties

**Keywords:** *logic, logic science, philosophy, essence, structure, object, event*